# Latviyanın Yekabpils şəhərində Azərbaycan guşəsinin açılışı olmuşdur

Latviya Respublikasının Yekabpils şəhərində ənənəvi "Şəhər günü" bayramı keçirilmişdir. 350 illik tarixi olan Yekabpils şəhəri Latviyanın iri şəhərlərindən biri hesab olunur və geniş



əlaqəli beynəlxalq əməkdaşlıq aparır. Bayram tədbirləri çərçivəsində şəhər sakinlərinin sevimli istirahət yeri olan Dauqava çayının sahilindəki xiyabanda ölkəmizə aid guşənin açılışı olmuşdur.

Azərbaycan guşəsinin açılış mərasimində Bakı Şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun rəhbərlik etdiyi nümayəndə heyəti, Yekabpils şəhərinin meri Ayvars Karps, Yekabpils şəhərinin qardaşlaşdığı digər şəhərlərin rəhbərləri, Latviya ictimaiyyətinin nümayəndələri iştirak etmişdir. Xatırladaq ki, Yekabpils şəhəri ilə Suraxanı rayonu Qaraçuxur bələdiyyəsi 2012-ci ilin 15 avqustunda imzalanmış qarşılıqlı əməkdaşlıq protokoluna əsasən qardaşlaşmışdır. Bu günə qədər Yekabpils şəhərinin qardaşlaşdığı yeddi şəhərdən dördünün - Almaniyanın Melme, Belarusun Lido, Polşanın Sokolov-Podlaski və Çervonika Lesçayna şəhərlərinin şərəfinə istirahət guşələri yaradılmışdır. Xüsusi tərtibatla salınmış istirahət guşələrində həmin şəhərlər və mənsub olduqları ölkələr haqqında məlumatlar öz əksini tapır. Məlumatlar latış, rus, ingilis və həmin ölkələrin dilindədir.

Özünəməxsusluğu ilə seçilən növbəti, beşinci guşə isə Azərbaycana həsr olunmuşdur. Guşədə Azərbaycan, Bakı və Suraxanı haqqında məlumat latış, rus, ingilis və Azərbaycan dillərində yerləşdirilmişdir.



Guşənin yanında Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinə istiqamətlənmiş nişan da quraşdırılmışdır. Açılış mərasimində Yekabpils şəhərinin meri Ayvars Karps çıxış edərək Bakı şəhərinin Suraxanı rayonu ilə səmərəli əməkdaşlıq etdiklərini, müntəzəm qarşılıqlı səfərlər zamanı Azərbaycanda müşahidə etdikləri sosial-iqtisadi inkişafdan danışmış və yeni salınan sayca beşinci istirahət guşəsinin məhz Azərbaycana həsr edilməsini böyük məmnunluqla qeyd etmiş, Dauqava çayının sahilindəki xiyabanda dostluğun simvolu olan Azərbaycana həsr olunmuş guşənin yaradılmasının əlamətdar hadisə olduğunu bildirmişdir.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov belə bir guşənin yaradılmasına görə şəhər meriyasına minnətdarlığını bildirərək bu təşəbbüsün ölkələrimiz və şəhərlərimiz arasında əməkdaşlığın güclənməsinə növbəti bir töhfə olduğunu qeyd etmişdir. İlqar Abbasov öz çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi sosial-iqtisadi nailiyyətlərdən danışmış, şəhərlərimizin, o cümlədən Bakının daha da gözəlləşməsini xüsusi qeyd etmişdir. Bildirmişdir ki, istirahət guşəsində Azərbaycanın qədim tarixi abidələrinin, yeni əzəmətli tikililərinin görüntülərinin əks olunması ilə yanaşı ölkəmiz haqqında məlumatın verilməsi Yekabpils sakinlərində ölkəmizə qarşı xüsusi maraq yaradacaqdır.

Daha sonra tədbir iştirakçıları Azərbaycan guşəsində xatirə şəkilləri çəkdirmişdir.

Açılış mərasimində Azərbaycan Respublikasının Latviya Respublikasında səfirliyinin birinci katibi Tural Rəhimov iştirak etmişdir.

**Suraxanı Rayon İcra Hakimiyyətinin mətbuat xidməti.**

# UNEC-də "V Ömürboyu təhsil və liderlik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) "V Ömürboyu təhsil və liderlik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

UNEC-in və Türkiyənin Sakarya Universitetinin birgə təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransda ABŞ, İngiltərə, Yaponiya, Çexiya, İtaliya, Latviya, Portuqaliya, Polşa daxil olmaqla 40-a yaxın ölkədən 250-dək təhsil və elm adamları iştirak edib.

UNEC-in Tədris və təlim texnologiyaları üzrə prorektoru, dosent Anar Rzayev ömürboyu təhsilin qloballaşan dünyada xüsusi önəm daşıdığına diqqət çəkərək, konfransın mövzusunun aktual olduğunu bildirib. UNEC-də ömürboyu təhsilin reallaşdırılması üçün bütün imkanların yaradıldığını deyən A.Rzayev, UNEC Ekstern Mərkəzinin fəaliyyətindən söz açıb. Mərkəzdə regionlarda fəaliyyət göstərən KOS nümayəndələrinə idarəetmə üzrə distant təlimlərin keçirildiyini bildirib. A.Rzayev konfransın ömürboyu təhsilin inkişafı istiqamətində yeni töhfələr verəcəyinə əminliyini ifadə edərək, konfransın işinə uğurlar arzulayıb.

Konfransın Azərbaycanda keçirilməsinin əhəmiyyətindən söz açan Sakarya Universitetinin professoru Osman Titrek ömürboyu təhsilin son zamanlar təhsil sahəsində ən çox diqqət mərkəzində olan paradiqmalardan biri olduğunu qeyd edib. Bildirib ki, dünyanın müxtəlif ölkələrindən olan nüfuzlu professor və alimlərin iki gün ərzində ömürboyu təhsilin nəzəriyyələri, texnologiyaları, iqtisadi aspektləri, iqtisadi inkişafdakı rolu və digər istiqamətlərdə məruzələri dinləniləcək.

Konfransda Böyük Britaniyanin Uorvik (Warwick) Universitetinin professoru Malkom Hoare, Portuqaliyanın Koimbra Universitetinin professoru Karlos Sousa de Reis və İtaliyanın Padova Universitetinin professoru Mişel Biasutti iqtisadiyyat və təhsil arasındakı əlaqələr, təhsil liderliyi mövzularında çıxışlar ediblər.

Konfransdan sonra panel iclaslarında ömürboyu təhsilin müxtəlif istiqamətləri üzrə məruzələr dinlənilib.

Qeyd edək ki, konfransa yerli və xarici alimlərin təqdim etdiyi 350-dək məqalə elm komitəsi tərəfindən təsdiqlənib. Konfrans materialları Thomson Reuters "Web of Science" bazasında yer alan SSCI indeksli "Sustainability" jurnalında çap olunmaq üçün seçiləcək. Bundan əlavə, konfrans ESCI və SCOPUS indekslərində yer alan jurnallarla da əməkdaşlıq edir.

Konfrans iyulun 11-dək davam edəcək. ■